KPMG

# Legislative Update Newsletter

*June 3, 2019*

Azərbaycan dilində ♦ View all updates ♦ Our services ♦ Media ♦ Key contacts

Overview of recent changes in the Azerbaijani legislation which could materially impact your business

## Tax and Legal Services

### 1. Law “On Mediation” was adopted

**Document:** Law of the Republic of Azerbaijan “On Mediation” (“ the Law”)

**Date of signing:** 29 March 2019

**Commentary:** This Law regulates public relations in the sphere of establishment of mediation as one of the alternative dispute resolution methods and defines the goals, principles, implementation rules and status of mediators.

Law regulates the process (mediation) regarding settlement of disputes arising between the parties through mutual consent with the assitance of mediator(s). Mediation is mainly applied to resolve the following issues:

- civil and economic disputes (including disputes involving foreign element);
- disputes arisen in the field of family relations;
- disputes arisen in the field of labor relations.;
- disputes arisen in the field of administrative law relations.

Also, in accordance with the Law, from 01 July 2020 parties will be required to attend the initial mediation session before applying to the court in connection with the disputes arisen in the field of economic, as well as family and labor relations.

## 2. Regulations on the "Centralized Electronic Information System" of the Ministry of Labor and Social Protection of Population of the Republic of Azerbaijan and Regulations on "e-social" internet portal was approved

**Document:** Decree of the President of the Republic of Azerbaijan on approval of Regulations on the "Centralized Electronic Information System" of the Ministry of Labor and Social Protection of Population of the Republic of Azerbaijan and Regulations on "e-social" internet portal (“Decree”)

**Date of signing:** 15 April 2019

**Commentary:** Regulations of Centralized Electronic Information System have been approved to improve the activities of the Ministry of Labor and Social Protection of Population of the Republic of Azerbaijan and ensure the implementation of social policy and its organization in accordance with modern requirements.

At the same time, Regulations have been approved in order to ensure the functioning of the “e-social” internet portal for providing the population with services related to the functions of the Ministry on a single platform in electronic format.

## 3. Decree No. 384 of the President of the Republic of Azerbaijan dated February 16, 2011 "On Application of the Constitutional Law of the Republic of Azerbaijan" On Normative Legal Acts” was amended

**Document:** Decree of the President of the Republic of Azerbaijan On making amendments to the Decree No. 384 of the President of the Republic of Azerbaijan dated February 16, 2011 "On Application of the Constitutional Law of the Republic of Azerbaijan" On Normative Legal Acts” (“Decree”)

**Date of signing:** 15 April 2019

**Commentary:** According to the Decree, Administration of the President of the Republic of Azerbaijan has been instructed to develop proposals on the mechanism of regulatory impact assessment while Cabinet of Ministers of the Republic of Azerbaijan has been instructed to take necessary measures related to the implementation of monitoring of draft legislative acts and legal acts in force in accordance with the said mechanism.

It should be noted that the mechanism for regulatory impact assessment is a progressive mechanism existing developed foreign countries. Based on this mechanism, draft legislative acts and legislative acts in force are analyzed from a socio-economic point of view and positive and negative opinions on the potential consequences of their application are prepared.

## 4. The Regulations on Single Internet Portal for Public Procurement was approved

**Document:** Decree of the President of the Republic of Azerbaijan on approval of “Regulations on the Single Internet Portal for Public Procurement” has been approved

**Date of signing:** 16 April 2019

**Commentary:** In accordance with the Regulations, it wil be possible to place a tender announcement through the Single ınternet portal for public procurement ("Portal"), send the required documents to the procuring entity, pay participation fee, register a supplier (contractor) as a bidder, exchange information between the procuring entity and the supplier (contractor), submit tender proposals, hold a virtual meeting of the tender commission, place the results of procurement etc.. Portal's activity is ensured by the portal operator. In order to use Portal, procuring entity and supplier (contractor) must create an electronic cabinet by registering on Portal.

## 5. Reforms in judicial system are deepening

**Document:** Decree of President of the Azerbaijani Republic "On Deepening reforms in judicial system" ("Decree")

**Date of signing:** 03 April 2019

**Commentary:** Creation of a specialized court on disputes arising out tax and custom payment, mandatory state social insurance contributions, as well as other issues related to entrepreneurial activity, as well as proccedings related to entrepreneurial activity, development of mechanism for the formation of a single judicial practice of the Supreme Court, differentiation of the rates of state duty paid on the cases considered by the courts in accordance with the price of claims, conduct of uninterrupted audio recording of all court sessions and preparation of minutes in accordance with the audio recording of court proceedings are envisaged within the framework of reforms in the judicial system. Reforms also includes setting up a hotline for receiving relevant information in order to eliminate the interference with the courts' activities and other negative events, conduct of monitorings in some areas, including publication of court decisions in electronic form, random and automatic electronic distribution of court cases.

## 6. Reforms in the energy sector are intensified

**Document:** Decree of the President of the Azerbaijan Republic on "Intensifying Reforms in the Energy Sector of the Azerbaijan Republic" ("Decree")

**Date of signature:** 29 May 2019

**Comment:** The Decree envisages development of "Long-term Development Strategy of the Energy Industry of the Republic of Azerbaijan", transition to liberal market model, enhancing efficiency of gas and energy supply systems in the country, attracting private investors to energy sector, preparation of new legislative acts regulating this sector and other actions with the purpose of acceleration of reforms in the energy sector,

# Our key contacts






**Murat Karakas**

Managing Partner

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru

**Farid Isayev**

Director,
Head of Tax and Legal
Department

T +994 12 404 8910
E fisayev@kpmg.az


www.kpmg.az

Privacy | Legal


You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.


If you have any questions, please send an e-mail to office@kpmg.az.


KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan



© 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of the Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan, a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

# Qanunvericiliyə Dair Mühüm Dəyişikliklər

*3 iyun 2019-cu il*



Biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək Azərbaycan qanunvericiliyinə edilən son dəyişikliklərin icmalını Sizin diqqətinizə çatdırırıq.

## Vergi və Hüquq Xidmətləri

### 1. “Mediasiya haqqında” Qanun qəbul olunmuşdur

**Sənəd:** “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 29 mart 2019-cu il

**Şərh:** Bu Qanun mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.

Qanun mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı prosesi (mediasiya) tənzimləyir. Mediasiya əsasən aşağıdakı məsələlərin həlli üzrə tətbiq edilir:

— mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla);
— ailə münasibətlərindən irəli gələn mübahisələr;
— əmək münasibətlərindən irəli gələn mübahisələr;
— inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.

Həmçinin Qanuna əsasən 1 iyul 2020-ci il tarixindən etibarən iqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər.

### 2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi” haqqında Əsasnaməsi və “e-sosial” internet portalı haqqında Əsasnamə təsdiq olunmuşdur

**Sənəd:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin və “e-sosial”

internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 15 aprel 2019-cu il

**Şərh:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və sosial siyasətin həyata keçirilməsi və müasir tələblərə uyğun təşkilinin təmin edilməsi məqsədi ilə Mərkəzləşdirilmiş elektron informasiya sisteminin Əsasnaməsi təsdiq edilmişdir.

Eyni zamanda, Nazirliyin fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədilə "e-sosial" internet portalının fəaliyyətini təmin etmək məqsədilə portal haqqında Əsasnamə təsdiq edilmişdir.

## 3. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanında dəyişiklik edilmişdir

**Sənəd:** "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral 384 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 15 aprel 2019-cu il

**Şərh:** Fərmana əsasən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına qanunvericiliyin təsirinin qiymətləndirilməsi mexanizmi ilə bağlı təkliflərin işlənib hazırlanması, Azərbaycan Respublikası Nazirlər Kabinetinə isə hazırlanan hüquqi aktların layihələrinin və qüvvədə olan hüquqi aktların qeyd olunan mexanizmə uyğun olaraq monitorinqinin həyata keçirilməsi ilə bağlı tədbirlərin görülməsi tapşırılmışdır.

Qeyd edək ki, qanunvericiliyin təsirinin qiymətləndirilməsi mexanizmi inkişaf etmiş xarici dövlətlərdə mövcud olan mütərəqqi mexanizmdir. Bu mexanizmə əsasən hazırlanan hüquqi aktların layihələri və qüvvədə olan hüquqi aktlar sosial-iqtisadi baxımdan təhlil edilərək onların tətbiq edilməsinin potensial nəticələri ilə bağlı müsbət və mənfi rəylər hazırlanır.

## 4. Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə təsdiq edilmişdir

**Sənəd:** "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 16 aprel 2019-cu il

**Şərh:** Əsasnaməyə uyğun olaraq dövlət satınalmalarının vahid internet portalı ("Portal") vasitəsilə tender elanını yerləşdirmək, qanunvericiliklə tələb olunan sənədləri satınalan təşkilata göndərmək, tenderdə iştirak haqqını ödəmək, malgöndərəni (podratçını) iddiaçı kimi qeydiyyatdan keçirmək, satınalan təşkilat ilə malgöndərən (podratçı) arasında qarşılıqlı məlumat mübadiləsini həyata keçirmək, tender təkliflərini təqdim etmək, tender komissiyasının virtual iclasını keçirmək, satınalmaların nəticəsini yerləşdirmək və s. mümkün olacaq. Portalın fəaliyyəti portalın operatoru tərəfindən təmin edilir. Portaldan

istifadə etmək üçün satınalan təşkilat və malgöndərən (podratçı) portalda qeydiyyatdan keçərək elektron kabinet yaratmalıdırlar.

## 5. Məhkəmə-hüquq sistemində islahatlar dərinləşdirilir

**Sənəd:** "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 03 aprel 2019-cu il

**Şərh:** Məhkəmə-hüquq sistemində islahatlar çərçivəsində vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, Ali Məhkəmənin vahid məhkəmə təcrübəsinin formalaşdırılması mexanizminin işlənib hazırlanması, məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq diferensiasiya edilməsi, bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılması və protokolların məhkəmə iclasının audioyazısına uyğun tərtib edilməsi və s. nəzərdə tutulur. İslahatlar həmçinin məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün qaynar xəttin yaradılmasını, bir sıra sahələrdə, o cümlədən məhkəmə qərarların elektron qaydada dərc edilməsi, məhkəmədə işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi sahəsində monitorinqlərin keçirilməsini əhatə edir.

## 6. Energetika sektorunda islahatlar sürətləndirilir

**Sənəd:** "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ("Sərəncam")

**İmzalanma tarixi:** 29 may 2019-cu il

**Şərh:** Energetika sektorunda islahatların sürətləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf strategiyası"nın işlənib hazırlanması, liberal bazar modelinə keçid, ölkədə qaz və istilik təchizatı sistemlərinin səmərəliliyinin artırılması, bu sahəyə özəl investisiyaların cəlb edilməsi, bu sahəni tənzimləyən yeni qanun layihələrinin işlənib hazırlanması və s. nəzərdə tutulur.

# Bizimlə əlaqə






**Murat Karakaş**

İdarəedici Partnyor

**Fərid İsayev**

Direktor,
Vergi və Hüquq
Xidmətlərinin rəhbəri

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru

T +994 12 404 8910
E fisayev@kpmg.az


www.kpmg.az

Privacy | Legal


You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of the Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan, a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.